

*Rafiq MUSA*

# GÖZƏLLİYƏ TƏLƏSİN

## *Qusarda yaşayan tələbə dostlarıma*

Yolumuza yağdı yağış
Sahmanladı solu-sağı.
Çox çəkmədi kəsdi yağış,
Göz oxşadı göyqurşağı.

Günəş də çox gecikmədi,
Çöllər güldü üzümüzə.
Yollar bizə yol göstərdi,
Qucaq açdı dağlar bizə.

Gözəllikdən doymaq olmur,
Biz gözəllik "dəlisiyik".
Bu da, Quba-Qussr yolu,
Gözəlliyə tələsirik.

Gəlişimdən xəbər tutub,
Görüşümə çıxdı dağlar.
Sevincinə sevinc qatıb,
Sinəsinə sıxdı dağlar.

Bu dağları görən kəslər
Bir özgə yer aramadı.
Bu yerləri görməyənlər,
Gözəllikdən yarımadı.

Səfərlərim çox olubdur,
Bu gün yenə "yol kəsirəm"
O yerlərin salamına,
Görüşünə tələsirəm.

Bu yerlərdən gözmü doyar?
Meşələrdi yaraşığı.
Dağlar sıxdı sinəsinə,
Qonaqladı "Ay isiğı".

Arzuların, istəklərin
Məkanıdır gözəl şəhər.

Gözəlliyə mat qalanlar
Bu şəhərdə sehrlənir.
Burda qonaq olan kəslər
Sevgilərlə mehrlənir.

Qəribsəməz kimsə burda,
Hər kəs qonaq marağında.
Ər oğullar "can qardaş"dır,
Öz yeri var qonağın da.

Binaların özəlliyi
Fərqli-fərqli biçimdədir.
Bu şəhərin bənzəri yox,
Yaşıllıqlar içindədir.

Təmizliyin keşiyində
Mən də varam, sən də varsan.
Küçələrdə sahmana bax,
Yarpaq belə tapammazsan.

Tikən tikir, quran qurur,
Daha deyən yoxdur "ura!"
Biz köçmüşük Avropaya,
Avropamı köçüb bura?!

Tikilənlər göz oxşayır,
Baxışımız özgə deyil.
Göz oxşayır yeni evlər,
Naxışımız özgə deyil!

Dəyişməyib xalqın ruhu,
Ocaq yanır, köz yerində.
Dəyişsə də dükan -bazar
Hörmət -izzət öz yerində.

Təpələr çay axarında
Əlvan çiçək çələngidi.

Göyün yerə sevgisi-- bu,
Gözəlliyi tən bölüşüb.
Çaylar, göllər ayna kimi,
Sanki göydən indi düşüb.

Əl uzatsan, aya çatar,
Göylər salar öz sehrinə.
Gecələri sakit görüb
Ulduzlar da enər yerə.

Çaykənarı yer qalmayıb,
Evlər qalxır dağa sarı
Daş barılar burda azdı,
Çıl- çırpıdır hasarları.

Bağ-bağçanı görən çaşar,
Gizlədəmməz heyrətini.
Bura adi bir meşəmi,
Ya kiminsə həyətimi?

Qalacağım yerim məlum,
Bu ünvana dönüb gəldim.
Ulduzların işığında
Avaranda gecələdim.

Gecə keçir, susur meşə,
Ay üzünün yönü bəri.
Baş qoyaraq təpələrə
Mürgüləyir kənd evləri.

Bir az yatdım, bəs elədi,
Dedim, gəzim çöl-çəməni.
Sanki çölə səsləyirdi
Ulduzların sehri məni.

Fikirlərim qəti idi,
Çəkilmədi sağa-sola.
Günəş yuxu həvəsində,
Toranlıqda çıxdıq yola.

Dağ yerinin havasına
Köklənmişəm, "yol kəsirəm".
O yerlərin sevgisinə,
Salamına tələsirəm.

Aranın öz gözəlliyi,
Dağların da öz yeri var.
Sanki göylə birləşibdir
Dağ yuxarı qalxan yollar.

Qanadlandım zirvəsinə
Yerə baxdım, "gözüm axdı".
Ayaq basdım buluduna
Göy tərpəndi, şimşək çaxdı.

Burda qonaq olanlara
Hər bir kəsin sevgisi var.
İllər ötər, dost süfrəsi
Zaman-zaman xatırlanar.

İnsanlarda sevgiyə bax,
Bu sevgini duyan çaşar.
Sözə dəyər verən kəslər
Bir kəlmədən doğmalaşar.

Amalımız, qanımız bir,
Bunu deyir qan qardaşım.
Biz deyirik: -"Qardaş canı",
Onlar deyir: -"Can qardaşım".

İnsan oğlu rahat olur
Dost-tanışlar olan yerdə.
Tələbəlik illərinin
Dostları var bu şəhərdə.

Vaxtım yoxdur görüşməyə,
Qorxmaz məndən inciməsin.
Gülnisə də bağışlasın,
Məni özgə, yad bilməsin.

İstəmirəm zəhmət verib,
İncik salım bir kimsəni.
Əzizə də xəbər tutsa,
Qınaycaq, yəqin, məni.

Görüşsəydik, pis olmazdı,
Fikrimizi bölüşərdik.
Qoy bu səfər son olmasın,
Bir də gəlsək, görüşərik.

Doğrudan da, bu yerlərin
Təriflərə sığmır adı.
Dərələrə sığan deyil
Bu şəhərin qol-qanadı.

Öz yerində olmalıdır
Yüz yol ölçüb, bir biçənlər.

Tərəziyə "əl gəzdirsən",
Hər kəs gendən salar havar.
Yağın, şorun dadı həmən
Necə vardı, elə də var.

Zəhmətinə bağlı kəslər
Bağ salanda ərinmədi.
Qoca ağac meyvəsinin
Dadı - tamı yerindədi.

Yaşamağa, yaratmağa
Hər kəsin var öz marağı
Burda hər kəs uca tutar
Zəhmət ilə yaşamağı.

Yamacları gül-çiçəkli
Təpələri xonçalıdı.
Qusar çayı bu şəhərin
Gümüş qınlı xançalıdı.

Meşələrə gendən baxdım,
Belə gözəl meşə hanı?
Qayıtmağa vaxt ayırdım,
Ötüb keçdim Avaranı.

Ayaq basdıq kənd yoluna,
Qarşıladı ellər bizi.
Kəndlər-- yaşıl donlu mələk,
Gizlətmədik sevgimizi.

Burda kimə salam versən,
"Can qardaşım" deyəsidi.
"Xoş gəlmisiz" deyən hər kəs
Söz və əməl yiyəsidi.

Yan-yanadır ulu dağlar,
Qoruyur el-obasını.
Dağlar sanki rəqs edəcək
"Məhərrəmkənd" havasını.

Dağa qalxdım, endim çaya,
Könlüm, elə bil, səngidi.

Dan ulduzu görünürdü,
Duydum çiçək qoxusunu.
Dərələrdən ərşə çəkdim
Meşələrin yuxusunu.

Belə meşə ələ düşməz,
Talasında gəzməyimmi?
Oyaq quşlar alqışladı
Səhər üzü, gəzməyimi.

Bulaq suyu, dağ çiçəyi,
Bir aləmdir çayın dadı.
"Lavaza"da nahar etdim,
Çay süfrəsi pis olmadı.

Bir az keçdi, çıxdı Günəş,
O, göstərdi nur üzünü.
Dağlar keçdim, dərə aşdım,
Kəndlər gördüm, yol uzunu.

Evlərə bax, quş yuvası,
Hər biri bir biçimdədi.
Kəndlərə bax, göz oxşayır,
Yaşıllıqlar içindədi.

Urvatlıdı Urva kəndi,
Hər evin öz qonağı var.
Yola baxır kənd evləri:
-Qonaq gələr yolda qalar!

Mən biləni elə də çox uzaq deyil,
Şəhərdən az aralıdı
Kəndin gedib-gələni çox,
Xuray qonaq-qaralıdı.

Bu yerlərin yenilməzdi
Dəliqanlı hər igidi.
Təpələrə çıxsan, yorar,
Təpələr də dağ kimidi.

Heyranıyam bu yerlərin
Yaşıl donlu kəndlərinə.
Mat qalmamaq mümkün deyil
Bərəsinə, bəndlərinə.

Yamaclarda kəndlər gözəl,
Bir-birinə sığınıbdı.
Evlərə bax, elə bil ki,
Sal qayadan asılıbdı.

Aladaş da gəl-gəl deyir,
Dağa qalxdim, ərinmədim.
Kəndə olan sevgimi mən
Elə kənddə qoyub gəldim.

Burda ömür sürənlərin
Ola bilməz dərdi-səri.
Yollara bax, sevgilərlə
Qucaqlayıb təpələri.

Dərələri "uzundərə",
Gədiklərdən keçmək olmur.
Yaşıllığın sehrinə bax,
Kəndi kənddən seçmək olmur.

Yaşıllıqlar arasında
Eşidilir çayın səsi.
Sal qayadan asılıbdı
Sanki Laza şəlaləsi.

Dağ yuxarı bir az qalxdım,
Aldım kəndin sorağını.
Laza kəndi qucaqladı,
Qarşıladı qonağını.

O yan tərət dərin dərə,
Bu yan tərəf duman-çəndi.
Dağa-daşa bir örnəkdi
Dözümlüdü Sudur kəndi.

Əsrlərin açarıdı
Hər millətin qan yaddaşı.
Bir tarixdir bu yerlərin
Hər qayası, hər bir daşı.

*(Davamı 7-ci səhifədə)*

*(Əvvəli 6-cı səhifədə)*

# GÖZƏLLİYƏ TƏLƏSİN

## *Qusarda yaşayan tələbə dostlarıma*

Uzaqlardan göz oxşayan
Şah dağının ağ qarıdı.
Arxasında mərd dayanan
Kicik Qafqaz dağlarıdı.

Zirvə uca, göylər dərin,
Uçan quşlar qanad salıb.
Yaş ötsə də, ər kişilər
Qocalmayıb, cavan qalıb.

Bu yerləri görən kəsin
Könlü bura bağlanası.
Qocanı da cavan saxlar
Sərin külək, dağ havası.

Quş qonmayan zirvəyə bax,
Bənzər qılınc tiyəsinə.
Havalandı könül quşum
Sığal çəkdi zirvəsinə.

Çeşmələri bal kimidi,
Ləzzətini içən bilər.
Çəmənlərin gül ətrini
Göy yamacdan keçən bilər.

Bu yerlərin hər qarışı
Dağlar ilə yüklənibdir.
Dağ çayının səsinə bax,
"Ləzginka"ya köklənibdir.

Kükrəyəndə uzaqda dur,
Ayaq qoyma sellərinə.
Üzün dursa mehə sarı,
Sığal çəkər tellərinə.

Çiçəklərin ləçəyində
Min bir dərdin dərmanı var.
Yüz yaşını ötür hər kəs,
İlahinin fərmanı var.

İnsanları bir yanadı,
Bir yanadı dünya varı.
Mehribandı, qonaqcıldı
Bu yerlərin adamları.

Burda qızlar-- "dəliqanlı",
Sevdiyinə könül verər,
Qızlar güzgü gəzdirməzlər,
Çeşmələrdə güzgülənər.

Burda sevib-sevilməyən
Od-alovdan, közdən düşər.
Zər qədrini zərgər bilər,
Karat burda gözdən düşər.

Əl uzatsam, əlim çatar
Həsrət yüklü Dərbəndimə.
Canı-qanı bir olanlar
Məlhəm olar hər dərdimə.

Göydə şimşək çaxan zaman,
Qılınc oynar, xata sovar.
Babaların and yeridi,
Yurd yeridi bu torpaqlar.

Bu yol-cığır çox tapdanıb,
Bir zamanlar olan oldu.
Bu yol şimal tərəflərə-?
Özümüzə dönən yoldu.

Bu yerlərdə kəndlər gördüm,
Evlər gördüm qatar-qatar.
Hər bir kəndin yaşamağa
Yaylağı var, qışlağı var.

Yağın,şorun dadına bax,
Hər nə yesən, baldı dadı.
Qışlaq yeri Hil kəndidi,
Yaylaq yeri Hil obadı.

Dağ kəndləri zaman-zaman
"Biz də də varıq", söyləyəcək.
Dağlar durub arxasında,
Külək əssə neyləyəcək?!

Kəndlər bizim yurd yerimiz
Dağda-düzdə salınıb kənd.
Burda evlər saya gəlmir,
Bir şəhərdi Məhərrəmkənd.

O əvvəlki günlər hanı?
Fikirlidir bənd-bərələr.
Gələni az, gedəni çox
Köç yoluna baxır kəndlər.

Bu kənd bizim Həzrə kəndi,
Dağlar kəndin öz yaşıdı.
Burda hər bir daş parçası
El-obanın yaddaşıdı.

Ocaq bizim, pir bizimdi,
Qəlbimizdə Haqqın səsi.
Bir tarixdi, bir inamdı
Şeyx Cüneyd məqbərəsi.

Bir tərəfdən gün düşəndə
Par-par yanır Samur çayı.
Yaşamağa dəyər burda,
Arzuların çoxdur sayı.

Ulu Dərbənd, ver əlini ,
Əlim dəysin əllərinə.
Öz dilində ovut məni,
Dərman olum dərd-sərinə.

Bu torpağa ayaq basan
Ömürünə ömür qatar.
Dərd-sərindən gileylilər
Şəfasını burda tapar.

Bu yerlərin əvəzi yox,
Təriflərə sığmır adı.
Əziz dostlar, siz də gəlin,
Rafiq Musa Qusardadı.

*08.08.2025*